# Vətənə xidmət missiyası



***❐ Ümummilli lider Heydər Əliyevin adını daşıyan dünya şöhrətli fondun yaradıcısı və ilk rəhbəri, UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq humanitar qurumların hər ikisinin xoşməramlı səfiri olan ilk qadın, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın daşıdığı yüksək vəzifələrin sırasına son həftələrdə daha bir ali missiya da əlavə olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 fevral tarixli sərəncamı ilə Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilən ilk azərbaycanlı, eyni zamanda, belə yüksək dövlət postuna yüksələn ilk qadın soydaşımız oldu.***

Dövlət başçısı İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında elan etdiyi bu təyinat barədə xəbər dərhal çağdaş informasiya sürəti ilə respublikamıza yayıldı, sonrakı günlərdə dünyanın yaxın-uzaq ölkələrində əks-səda doğurdu. Bu xəbər hər yerdə olduqca təbii qarşılandı, xalqımızın qəlbindən sonsuz sevinc dalğası ilə keçdi, dünyadakı dostlarımızda məmnunluq yaratdı.

Doğrudan da, ümummilli lider Heydər Əliyevin ölməz ideyalarına bütün varlığı ilə bağlı olan, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli daxili və xarici siyasətə layiqli töhfələrini verən Heydər Əliyev Fondunun prezidentinin ulu öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan dövlətinin ali idarəetmə sistemində ikinci yüksək vəzifəni daşımasına çoxdan siyasi və mənəvi haqqı çatırdı.

Xalqımızın milli mədəniyyətinin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında Mehriban xanımın müstəsna xidmətləri onu cəmiyyətə mötəbər ictimai-siyasi xadim kimi tanıtmışdır. Birinci xanım olduğu, Heydər Əliyev Fonduna rəhbərlik etdiyi, Milli Məclisə deputat seçildiyi vaxtdan bəri ölkə həyatının elə bir sahəsi olmamışdır ki, buradakı ağrılı məsələlər Mehriban xanımın diqqətindən kənarda qalsın.

Azərbaycanın birinci xanımının rəhbərliyi altında həyata keçirilən layihələr təhsil, səhiyyə, mədəniyyət və sosial sferaları, ekologiya, idman və s. sahələri əhatə edir. Mehriban xanımın bütün bu şərəfli fəaliyyəti müasir Azərbaycanın ictimai-siyasi tarixinin bir hissəsinə çevrilib. O, indiyədək bütün imkanlarını, bacarığını insanların rifahı naminə humanitar proqramların reallaşdırılmasına, Azərbaycanın dünyada sivil ölkə kimi tanıdılmasına yönəldib.

Heydər Əliyev Fondu fəaliyyətə başladığı 2004-cü ildən onun rəhbəri xalqımızın zəngin mənəvi irsini, azərbaycançılıq fəlsəfəsini yaşatmaq, dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq kimi şərəfli missiyanı yüksək əzm və peşəkarlıqla həyata keçirir. Ötən müddətdə fond həyatın ayrı-ayrı sahələrində müxtəlif layihələr reallaşdıraraq yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-mədəni tərəqqisinə töhfəsini verir. Mehriban xanım Əliyeva isə özünü köməyə ehtiyacı olan insanlara hər an yardım əlini uzatmağa hazır etibarlı dayaq, doğma insan kimi tanıda, sevdirə bilib.

Bu nəcib xanım cəmiyyətdə xeyriyyəçilik və mesenatlıq ənənələrinin daşıyıcısına və qoruyucusuna çevrilib. Mehriban Əliyevanın bir neçə dəfə amnistiya təşəbbüsü ilə çıxış etməsi cəmiyyətdə yüksək razılıqla qarşılanıb. Onun bu addımı insani dəyərlərin, mərhəmət hissinin cəmiyyətə aşılanmasına, ictimai şüura hakim kəsilməsinə yönəlib.

Mehriban xanım Əliyevanı xalqımıza sevdirən həm də onun tariximizə dərin marağı və tarixi reallıqları, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini, eləcə də XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının dəhşətlərini, işğal edilmiş ərazilərimizdəki saysız-hesabsız vandalizm faktlarını dünya ictimaiyyətinə çatdırmasıdır.

Son 13 ildə Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə görülən işlər xalqın sevdiyi və dəyərləndirdiyi bu insan ölkənin ikinci yüksək postuna yüksələndən sonrakı günlərdə bir daha gözlərimiz önündə sıralanır. Bunlar: yüzlərlə yeni məktəb və uşaq evləri, tibb müəssisələri, diaqnostika və müalicə ocaqlarıdır; bərpa olunan tarixi və dini abidələr, yenidən qurulan mədəniyyət ocaqları, muzeylər, konsert salonlarıdır; parklar, yollar, su, işıq və qaz xətləridir; müxtəlif dillərdə işıq üzü görən, Azərbaycanın həqiqətlərini dünyaya yayan kitablar, foto və videoalbomlar silsiləsidir; zəngin mədəni və tarixi irsimizin təbliğinə yönələn beynəlxalq simpoziumlar, festivallar, elmi konfranslardır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsləri ilə ərsəyə gələn Azərbaycanda Beynəlxalq Muğam Festivalı, Beynəlxalq Caz Festivalı, Üzeyir Hacıbəyli adına Beynəlxalq Musiqi Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Qara Qarayev Beynəlxalq Müasir Musiqi Festivalı, Rostropoviç Beynəlxalq Festivalının keçirilməsi təkcə ölkəmizdə deyil, həm də dünyada mədəni tələbatın cavablandırılmasına xidmət edir.

Mehriban Əliyevanın himayəsi ilə Versal Sarayının parkındakı mədəniyyət abidələrinin, Luvrda İslam incəsənəti şöbəsinin, Berlin Qəsrinin, Romada Kapitoli muzeyindəki "Filosoflar zalı"nın və s. bərpası, müxtəlif ölkələrdə tikilən sosial obyektlər müstəqil dövlətimizin imicini yüksəldir, xalqımıza çoxlu dostlar qazandırır. Azərbaycanın birinci xanımının ayrı-ayrı vaxtlarda layiq görüldüyü nüfuzlu beynəlxalq mükafatlar və fəxri titullar, şübhəsiz, xalqımızın böyük ideallarının layiqli təmsilçisi olan Mehriban xanımın humanitar sahələrdə geniş və səmərəli fəaliyyətinin beynəlxalq miqyasda diqqət mərkəzində olduğunu və yüksək dəyərləndirildiyini bir daha təsdiqləyir.

Heydər Əliyev Fondunun rəhbəri son illərdə çox mühüm dövlət əhəmiyyətli tapşırıqların da öhdəsindən layiqincə gəlib. "Eurovision" beynəlxalq musiqi teleyarışmasında Azərbaycanın qalib gəlməsi və növbəti il bu yarışmanı ölkəmizin yüksək səviyyədə təşkil etməsi, "Bakı-2015" ilk Avropa Oyunlarının möhtəşəmliyi, populyar "Formula-1" yarışının əzəməti dostlarımızın və düşmənlərimizin gözləri qarşısında misilsiz tarixi uğurlarımız sırasına yazıldı. Bu qələbələrin qazanılmasında Təşkilat Komitəsinin sədri kimi Mehriban Əliyevanın göstərdiyi müstəsna zəka və yetərli qətiyyət cəmiyyətdə, eləcə də xarici aləmdə onun daha böyük və məsul vəzifələrin öhdəsindən də layiqincə gələ biləcəyi qənaətini yaratdı. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin "Bakı-2015" Oyunları ilə bağlı görülən işləri fantastika adlandırması heç də təsadüfi deyildi.

Mehriban xanım Əliyeva mətbuata müsahibələrinin birində deyib: "Uğur xatirinə uğur, hakimiyyət xatirinə hakimiyyət və ambisiya mənim üçün heç vaxt aparıcı motiv olmayıb. Əsas məsələ odur ki, ehtiyacı olan insanlara kömək edəsən". Son həftələrdə xalqımız və xaricdəki dostlarımız da Mehriban Əliyevanın yüksək dövlət postuna irəli çəkilməsini – Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunmasını onun bu ali məramının, xalqımız və dövlətimiz qarşısında xidmətlərinin nəticəsi kimi qiymətləndirirlər.

Xalqımız tarixlərdən keçib gələn Azərbaycan qadınının şərəfli adını daha ucalara yüksəldən Mehriban xanım Əliyevanın bundan sonra da millətimizə, Vətənimizə fədakarlıqla xidmət edəcəyinə inanır və ona bu yolda yeni-yeni uğurlar arzulayır.

***Nizami CƏFƏROV,***
***AMEA-nın müxbir üzvü,***
***Milli Məclisin deputatı***